**Avrasiya maliyyə ekspertlərinin 8-ci seminarı**

Mayın 28-dən 30-dək Ümumdünya Gömrük Təşkilatının Brüsseldə yerləşən baş qərargahında Beynəlxalq Vergi və İnvestisiya Mərkəzinin (ITIC) Avropa İttifaqının Vergi və Gömrük Baş Direktorluğu, Avropa Parlamenti İqtisadi və Maliyyə Məsələləri Komitəsi, Avropadaxili Vergi Administrasiyaları Təşkilatı və Ümumdünya Gömrük Təşkilatı ilə birgə təşkil etdiyi Avrasiya Maliyyə Ekspertlərinin 8-ci İllik seminarı keçirilmişdir. Seminarda Azərbaycan, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Monqolustan və Ermənistanın nümayəndə heyətləri, Avrasiya İqtisadi Birliyinin Komissiyasının nümayəndələri, eləcə də bir sıra şirkətlərin nümayəndələri və müstəqil maliyyə ekspertləri iştirak etmişlər.
Tədbirdə Azərbaycanı vergilər nazirinin müavini, üçüncü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərovun başçılıq etdiyi nümayəndə heyəti təmsil etmişdir. Seminarın gedişində vergilərə qlobal baxış, beynəlxalq inteqrasiya şəraitində enerji sektorunun vergiyə cəlb olunması, ölkələrin vergi siyasətləri və digər mövzularda təqdimatlar edilmiş, mövzular ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Mərasimdə çıxış edən ITIC-nin prezidenti Daniel Vitt Avrasiya Maliyyə Ekspertlərinin 2011-ci ilin 1-3 iyun tarixlərində Bakı şəhərində keçirilmiş 7-ci illik seminarının əhəmiyyətindən danışmış, təşkilatın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində həmin tədbirin mühüm rol oynadığını bildirərək, Azərbaycan nümayəndə heyətini Respublika Günü münasibətilə təbrik etmişdir.
Azərbaycan Respublikası vergilər nazirinin müavini Sahib Ələkbərov tədbirdə çıxış edərək iştirakçılara ötən əsrin əvvəllərində Şərqdə ilk respublikanın - Azərbaycan Demokratik Respublikasının yaranması və fəaliyyət göstərdiyi 23 ay ərzində ölkədə həyata keçirilmiş demokratik islahatlar, onun varisi olan Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpasından ötən 20 il ərzində əldə olunmuş nailiyyətlər barədə ətraflı məlumat vermişdir.
Seminarın «Vergilərə qlobal baxış»” adlanan sessiyası ITIC-nin baş iqtisadi məsləhətçisi, Maastrixt Universitetinin professoru Siybren Knossenin və Sahib Ələkbərovun həmsədrliyi ilə keçirilmişdir. Müzakirələr zamanı MDB dövlətlərində vergi siyasəti və inzibatçılığının təkmilləşdirilməsi sahəsində atılan addımlar, əldə olunmuş nailiyyətlər qeyd edilmişdir. Sessiyada Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin rəisi Ülvi Yusifov «Azərbaycanda dövlət vergi siyasəti: məqsədlər və onlara çatmağın yolları» mövzusunda tədbir iştirakçılarında böyük maraq doğuran geniş təqdimatla çıxış etmişdir. Nümayəndə heyətinin üzvləri ölkəmizin vergi sistemində tətbiq olunan elektron xidmətlər və ƏDV-nin depozit hesabı ilə bağlı çoxsaylı sualları cavablandırılmışdır.